**Aysel ASLANOVA,**
Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizasının
Mərkəzi Sənədlərin texniki ekspertizası
şöbəsinin aparıcı eksperti
**Aysel Aslanova 099@gmail.com**

# SƏNƏDLƏRİN MƏHKƏMƏ-TEXNİKİ EKSPERTİZASININ YARANMASI, MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**Açar sözlər:** sənədlərin saxtalaşdırılması, rekvizitlər, sənədlərin məhkəmə-texniki ekspertizası, müasir vəziyyət, aktual problemlər

**Keywords:** falsification of documents, requisites, forensic examination of documents, current situation, urgent problems

**Ключевые слова:** подделка документов, реквизиты, судебно-техническая экспертиза документов, современное состояние, актуальные проблемы

İlk yazılı sənədlərin meydana gəlməsi ilə onların saxtalaşdırılması, qanunazidd məqsədlərlə istifadə edilməsi halları da yayılmağa başlamışdır.

Sənədlərin saxtalaşdırılması və belə hallarla mübarizə haqqında qeydlər isə hələ qədim Roma hüquq mənbələrində öz əksini tapmışdır. Siseronun etiraf etdiyi kimi, «hətta bəzi vicdanlı adamların da sənədləri saxtalaşdırmaq yolu ilə varlanmaq imkanı yarandıqda buna əl atdıqlarını görürük» [1, s.175]. Eramızdan əvvəl 1-ci əsrdə Roma hökmdarı Sulla tərəfindən sənədlərin saxtalaşdırılmasını həyata keçirən şəxslər barədə məsuliyyət nəzərdə tutan «Korneliya» adlanan qanunu imzalanmışdı. Bu qanuna uyğun olaraq saxta vəsiyyətnamə hazırlayan, saxta sənədlərə möhür vuran, əsl vəsiyyatnaməni gizlədən, sənədlərin mətninə əlavə, pozma, üstdən düzəltmə və digər yollarla dəyişikliklər edən şəxslər cəzalandırılırdı [2, s.213].

Orta əsrlərdə bir çox ölkələrdə sənədlərin saxtalaşdırılması hallarına qarşı mübarizə daha da sərtləşdirilmiş, buna görə məsuliyyət nəzərdə tutan xüsusi normalar ayrı-ayrı qanunvericilik aktlarına daxil edilmişdi. Məsələn, XVI əsrin 1-ci yarısında Fransada sənədlərin saxtalaşdırılması hallarının artmasının, nəticədə də əhaliyə və dövlətə həmiyyətli əmlak ziyanın vurulmasının qarşısını almaq məqsədilə Kral I Frantsisk 1532-ci ildə bu kateqoriyalı cinayətlərə görə daha sərt cəzaları müəyyən edən xüsusi qanunvericilik aktını imzalamışdı.

E.R.Rossinskaya və A.M.Zinin yazırlar ki, hələ orta əsrlərdə, xüsusən də XVI əsrdən başlayaraq sənədlərin, ilk növbədə əmlak münasibətlərini tənzimləyən sənədlərin - veksellərin, vəsiyyətnamələrin və s. tədqiqi, istər saxtalaşdırma faktının, istərsə də saxtalaşdırma üsulunun müəyyən edilməsi üçün mütəxəssislərin cəlb olunması tələb olunurdu. Bu cür tədqiqatlar aptekçilərə və əczaçılara tapşırılırdı. Bu da sənədlərdə dəyişikliklərin edilməsi zamanı istifadə olunan maddələrin müəyyən edilməsi zəruriliyi ilə bağlı idi [3, s.20].

1550-ci il tarixli Rusiya Məhkəmə Qanunnaməsində sənədlərin saxtalaşdırılması quldurluq və adam öldürmə kimi əməllərlə yanaşı təhlükəli cinayətlər kateqoriyasına aid edilmişdi. Kilsə Qanunnaməsində sənədlərin saxtalaşdırılmasına xüsusi fəsil həsr olunmuş, saxta sənədlərin və möhürlərin hazırlanmasına görə ölüm hökmü nəzərdə tutulmuşdu [4]. Qanunnamə ilə sənədlərin saxtalaşdırılması ilə bağlı əməllər cinayət hesab edilməklə yanaşı, onların törədilməsinin mümkün üsulları da təsvir edilmişdi. Bu isə təcrübədə artıq sənədlərin həqiqiliyinin yoxlanılması və saxtakarlığın aşkarı üzrə müəyyən qaydalarının mövcudluğunu və bu işə mütəxəssislərin cəlb olunduğunu söyləməyə əsas verir [5, s.106].

XVIII əsrin sonundan başlayaraq sənədlərin tədqiqi zamanı təbiət və texnika elmlərinin nailiyyətlərindən istifadə edilməyə başlamışdır. Bu isə ilk növbədə kimya sahəsində ixtira və kəşflərlə bağlı idi. 1818-ci ildə Rusiyada V.Reymerin «Polis və məhkəmə kimyası» kitabı rus dilində tərcümə olunaraq nəşr olunmuşdur. Bu kitabda sənədlərin materiallarının tədqiqinin kimyəvi metodları haqqında məlumatlar əks olunmuşdu. Bir çox ziddiyyətlərə və natamamlığa baxmayaraq bu kitab uzun müddət xüsusi biliyə malik olan əczaçılar və digər şəxslər üçün yeganə vəsait kimi istifadə olunmuşdur. Beləliklə, bu dövrdə sənədlərin saxtalığının müəyyən edilməsi işi çox vaxt aptekçilərə, yəni elmi tədqiqatların aparılması üzrə səriştəsi olmayan insanlara tapşırılırdı. İ.F. Krılovun qeyd etdiyi kimi, məhkəmədə mütəxəssis (ekspert) qismində çıxış edən aptekçilər kimyanı aptek işindən, laboratoriyanı isə aptekdən fərqləndirə bilmirdilər [1, s.183-200].

Sənədlərin tədqiqinin kimyəvi metodlarının şərh olunduğu ilk elmi nəşr qismində A.Nakenin 1874-cü ildə nəşr olunmuş «Məhkəmə kimyası» kitabı hesab edilə bilər. Eyni zamanda bu kitab icmal xarakteri daşıyırdı və onda konkret metodiki tövsiyələr öz əksini tapmamışdı [6, s.21].

Cinayətkarlıqla mübarizə sahəsində elm və texnikanın nailiyyətlərindən istifadə prosesinin aktivləşməsi XIX əsrin sonu - XX əsrin əvvəllərinə təsadüf edir. Bu dövrdə E.F.Burinski, Q.Qross, R.A.Reyss, N.V.Terziyev və digərlərinin sənədlərin kriminalistik tədqiqatının müxtəlif aspektlərinə həsr olunmuş əsərləri meydana gəlir [7, s.135].

XIX əsrin 80-90-cı illərində ABŞ və İngiltərə kimi ölkələrdə sənədlərin məhkəmə-texniki ekspertizası ilə bağlı bir sıra elmi-praktik xarakter daşıyan əsərlər meydana gəlir. K.Q.Sarıcalinskaya bununla bağlı qeyd edirdi ki, «XIX əsrin sonlarında ABŞ və İngiltərə kimi böyük dövlətlərdə sənədlərin məhkəmə-texniki ekspertizasına aid bir sıra xüsusi əsərlər yazılmışdır. Belə əsərlərə V.Hegenin (1984) və P.Frezerin (1900) kitablarını aid etmək olar» [8, s.77].

1910-cu ildə amerikalı ekspert A.Osbornun «Sənədlərin tədqiqi» əsəri nəşr olunur ki, bu əsərdə də sənədlərin və onlarda əks olunan mətnlərin tədqiqi üsullarına geniş yer ayrılır [3, s.24].

Fotoqrafiyanın meydana gəlməsi sənədlərin kriminalistik-texniki tədqiqatında istifadəsi sahəsində böyük dönüş yaratmaqla bu növ obyektlərin tədqiqatı üsullarını və vasitələrini genişləndirmişdir.

Təsadüfi deyildir ki, A.Bertilyon tədqiq olunan sənədlərin surətinin çıxarılmasında və əlyazmaların geniş ölçüdə əkslərinin alınmasında fotoqrafiyanın böyük əhəmiyyəti olduğunu qeyd etmişdir [9, s.9].

Rusiyada 1912-ci ildə nəşr olunan «cinayətlərin istintaqında elmi texnika» adlı mühazirələr kursunda alman kriminalisti R.A.Reyes sənədlərin tədqiqatının müxtəlif aspektlərinə də diqqət yetirir. Müəllif bu əsərinin «Sənədlərin tədqiqi haqqında ümumi qeydlər» bölməsində sənədlərin tədqiqi zamanı həll edilən əsas vəzifələr qismində sənədlərin ilkin məzmununun dəyişdirilməsi üsulunun müəyyən olunması, sənədin müxtəlif fraqmentlərinin icra olunduğu mürəkkəblərin eyniləşdirilməsi; möhürlərin və ştampların əkslərinin həqiqiliyinin müəyyən edilməsi; sənədin və onun ayrı-ayrı hissələrinin icra olunduğu vaxtın müəyyən olunması; mətnin müəyyən hissəsinin «görünməyən» mürəkkəblə icra olunması faktının müəyyən edilməsi və digərləri xüsusi olaraq qeyd etmişdir [2, s.214].

Q.Qrossun «Məhkəmə müstəntiqləri üçün rəhbərlik kimi kriminalistika sistemi» adlanan əsərində də saxta sənədlərin tədqiqi xüsusiyyətləri haqqında bəzi məlumatlar öz əksini tapmışdır. Belə ki, müəllif, ilk dəfə olaraq sənədlərin tədqiqi sahəsində xüsusi biliklərə malik şəxslər haqqında danışır və onları «mikroskopistlər» adlandırır [10, s.250-278].

Kriminalistikanın bu istiqamətinin inkişafına E.F.Burinskinin fundamental töhfə verdiyi xüsusi qeyd edilməlidir. Məhkəmə tədqiqat fotoqrafiyasının yaradıcısı olan E.F.Burinski böyüdülmüş əkslərin hazırlanması, zədələnmiş mətnlərin bərpa olunması, saxtalaşdırmanın aşkar edilməsi məqsədilə məhkəmə fotoqrafiyasının tətbiqi imkanlarını öyrənməyə, sənədlərin tədqiqi ilə bağlı olan aktual problemləri həll etməyə çalışmış, sənədlərin saxtalaşdırılması üsullarının sistemləşdirilməsinə cəhd etmişdi. Onun fikrincə, məhkəmə

fotoqrafiyasının metodları vasitəsilə zəif görünən, görünməyən, kimyəvi və mexaniki üsulla pozulmuş, üzərləri hər hansı bir ləkə ilə örtülmüş mətnləri, qeydləri üzə çıxarmaq və onların məzmununu müəyyənləşdirmək mümkündür [9, s.9].

Tədqiqat daxilində qeyd edilməlidir ki, 1926-cı ildə S.M.Potapovun «Məhkəmə fotoqrafiyası» kitabı işıq üzü görür. Kitabın ikinci hissəsi məhkəmə-fotoqrafik ekspertizası ilə bağlı məsələlərə həsr olunmuşdu. Müəllif tərəfindən digər məsələlərlə yanaşı, möhürlərin və ştampların, yazı makinası şriftlərinin tədqiqi zamanı fotoqrafik metodların tətbiqi imkanları göstərilmişdi [3, s.24].

Eyni zamanda XIX əsrin sonu, XX əsrin əvvəllərində cinayət mühakimə icraatı üçün kriminalistik əhəmiyyət kəsb edən informasiyanın alınması məqsədilə sənədlərin tədqiqinin bir çox elmi-nəzəri və metodiki məsələlərinin kifayət qədər dərin və hərtərəfli işlənilmədiyi də qeyd olunmalıdır [2, s.214].

Məhkəmə ekspertizasının bir sahəsi kimi sənədlərin məhkəmə-texniki ekspertizasının nəzəri əsasları XX əsrin 40-cı illərindən etibarən formalaşmağa başlamışdır.

Sənədlərin kriminalistik tədqiqatının əsas nəzəri və metodoloji müddəaları ilk dəfə olaraq N.V.Terziyev tərəfindən formulə edilmişdir.

1949-cu ildə N.V.Terziyev və A.A.Eysmanın «Sənədlərin kriminalistik tədqiqatına giriş» monoqrafiyası işıq üzü görmüşdür. Məhz bu kitabda N.V.Terziyev ilk dəfə olaraq «sənədlərin texniki ekspertizası» terminini elmi dövriyyəyə daxil etmişdir. Kitabda sənədlərin kriminalistik tədqiqatının predmetinin və sisteminin anlayışları verilmiş, sənədlərinin tədqiqatının obyektləri və vəzifələri formulə edilmişdir ki, bu müddəalar da hazırda da öz nəzəri və praktiki əhəmiyyətini itirməmişdir. N.V.Terziyev tərəfindən təklif olunan tövsiyələr sənədlərin tədqiqatının tipik ekspert metodikalarının təkmilləşdirilməsində, həmçinin məhkəmə ekspertizasında yeni metodiki yanaşmaların işlənib hazırlanmasında baza rolunu oynamışdır.

R.S.Belkin də sənədlərin kriminalistik tədqiqatının bir sıra metodiki müddəalarının işlənib hazırlanmasına öz töhfəsini vermişdir. Onun XX əsrin ortalarında işıq üzü görmüş ilk elmi işlərindən biri poliqrafik üsulla hazırlanmış sənədlərin tədqiqi məsələlərinə həsr olunmuşdu. Bu əsərdə müəllif tərəfindən poliqrafik məhsulların kriminalistik tədqiqatı xüsusiyyətləri nəzərdən keçirilmiş, bu üsuldan istifadə etməklə hazırlanmış sənədlərin ekspert tədqiqatının metodiki əsasları işlənib hazırlanmışdı [11 s.24-25].

Sənədlərin kriminalistik tədqiqatının nəzəri və metodoloji əsaslarının işlənib hazırlanmasında N.P.Yablokovun elmi əsərləri də mühüm əhəmiyyətli rol oynamışdır. 1954-cü ildə N.P.Yablokov «kriminalistikada sənədlərin texniki ekspertizası» mövzusunda dissertasiya işini müdafiə etmiş və bu dissertasiyanın müddəaları sənədlərin ekspert tədqiqatını aparan praktiki işçilər üçün nəzərdə tutulmuş «sənədlərin materiallarının kriminalistik tədqiqatı» dərs vəsaitinin əsasını təşkil etmişdir [12].

XX əsrin 70-ci illərində diyircəkli qələm pastalarının, mürəkkəblərin, surətçıxarma kağızlarının rəngləyici maddələrinin, yazı makinalarının lentlərinin tərkibinin müəyyən edilməsi üzrə kompleks metodikaların işlənib hazırlanmasına həsr olunmuş bir sıra metodiki vəsaitlər nəşr olunmağa başlayır. Onların sırasında V.A.Semenovanın «Sənədlərin materiallarının tədqiqi», V.A.Snetkovun «Sənədlərin texniki-kriminalistik ekspertizasının əsas vəzifələri, ekspert tədqiqatlarının təşkili» və digərlərini xüsusi olaraq qeyd etmək olar [13; 14].

Sənədlərin məhkəmə-texniki ekspertizasının elmi-nəzəri əsaslarının formalaşmasında V.K.Lisiçenkonun 1971-ci ildə nəşr olunmuş «Sənədlərin kriminalistik tədqiqatı» monoqrafiyası da əhəmiyyətli rol oynamışdır [3, s.26-27].

Müxtəlif işarə-çapedici qurğuların köməyi ilə hazırlanmış sənədlərin kriminalistik tədqiqatının metodiki əsaslarının işlənib hazırlanmasında V.M. Paliyin də əməyi danılmazdır. V.M.Paliy «İşarə çap edən qurğulardan istifadə etməklə hazırlanmış sənədlərin kriminalistik tədqiqatı» adlanan monoqrafik əsərdə yazı makinalarından istifadə etməklə hazırlanmış sənədlərin kriminalistik tədqiqatının elmi-nəzəri və metodiki əsasları ilə bağlı bir sıra məsələlər kompleksini nəzərdən ke-

çirərək həll etməyə çalışmışdır [15].

XX əsrin sonu, XXI əsrin əvvəllərində sənədlərin məhkəmə-texniki ekspertizası icraatının elmi-nəzəri və metodiki əsaslarının işlənib hazırlanmasına istiqamətlənmiş tədqiqatlar daha da intensivləşmişdir.

Müasir informasiya-kompüter texnologiyalarından istifadə etməklə hazırlanmış sənədlərin kriminalistik tədqiqinin ayrı-ayrı aspektləri S.A. Kostovun («Operativ poliqrafiya vasitələrindən istifadə etməklə hazırlanmış sənədlərin kriminalistik tədqiqi, 1997), L.İ.Bulanovanın (Yeni texnologiyalar əsasında hazırlanmış möhür və ştamp əksilərinin kriminalistik tədqiqi, 1998), N.N.Şvedovanın (sənədlərin texniki-kriminalistik tədqiqatında kompüter texnologiyalarının tətbiqi, 1999), A.V.Qortinskinin (Matrisa tipli kompüter çap qurğularının kriminalistik diaqnostikası və eyniləşdirilməsinin nəzəri və metodiki əsasları, 2000), A.N.Yakovlevin (İnformasiyanın maşın maqnit daşıyıcılarında sənədlərin ekspert tədqiqatının nəzəri və metodiki əsasları, 2000), A.V.Efimenkonun (Elektrofotoqrafik çap qurğularından istifadə etməklə hazırlanmış sənədlərin texniki-kriminalistik tədqiqatı, 2011) dissertasiya işlərində nəzərdən keçirilmişdir.

XX əsrin sonlarından başlayaraq rəsmi sənədlər artıq yazı makinalarında deyil, kompüter müasir çap qurğularından - printerlərdə və surətçıxaran texnikadan istifadə etməklə hazırlandığı nəzərə alınaraq kompüterlərdən, digər rəqəmsal qurğulardan və texniki vasitələrdən istifadə etməklə hazırlanan sənədlərin kriminalistik tədqiqinə xüsusi diqqət yetirilməyə başlanmışdır [16].

Rəqəmsal çap qurğularından (printerlərdən) istifadə etməklə icra olunmuş sənədlərin kriminalistik tədqiqatı sahəsində monoqrafik əsərlər sırasında S.B.Şaşkinin doktorluq dissertasiyasını xüsusi olaraq qeyd etmək lazımdır. Monoqrafik tədqiqatda sənədlərin hazırlanmasında istifadə olunan poliqrafik texnika vasitələrinin eyniləşdirilməsi sahəsində yeni metodoloji yanaşmalar təklif edilmişdir. Doktorluq dissertasiyasında printerlərdən, digər çapedici qurğulardan, poliqrafik texnikadan istifadə etməklə hazırlanan sənədlərin tədqiqatının təsnifat, diaqnostik və eyniləşdirici imkanlarını ardıcıl surətdə araşdırmış, elmi biliklərin inteqrasiyası və differensiasiyası kimi meyllər nəzərə alınmaqla sənədlərin məhkəmə-texniki ekspertizasının yeni növlərinin formalaşması istiqamətləri göstərilmişdir [17].

Qeyd edək ki, ümumən sənədlərin məhkəmə-texniki ekspertizasının, habelə onun ayrı-ayrı növlərinin elmi-nəzəri, təşkilati-texniki və metodiki əsaslarının işlənib hazırlanması sahəsində aparılan monoqrafik tədqiqatlar son illərdə də davam etdirilmişdir.

Onların sırasında A.V.Dosovanın (Sənədlərin məhkəmə-texniki ekspertizasının qeyri-ənənəvi növlərinin metodoloji, texniki (texnoloji) və metodiki xüsusiyyətləri, 2014), O.A.Barinovanın (Müasir yazı materialları ilə icra edilmiş sənədlərin rekvizitlərinin kriminalistik tədqiqatı: nəzəri və tətbiqi aspektlər, 2015), M.V.Toropovanın (Sənədlərin rekvizitlərinin icra edilməsininn nisbi müddətinin müəyyən edilməsi ilə bağlı kriminalistik ekspertizası, 2014), A.Q.Zodornovun (Saxta rəsmi sənədlərin hazırlanması hallarının təyininin texniki-kriminalistik təminatı: nəzəri və praktiki aspektlər, 2018) dissertasiya tədqiqatı səviyyəsində həyata keçirdikləri araşdırmaları xüsusi olaraq qeyd edilməlidir.

XX əsrin 60-cı illərində Azərbaycanda sənədlərin məhkəmə-texniki ekspertizası əsasən 1960-cı ildə yaradılmış Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunda (Azərb.ETMEK və KPİ), onun struktur bölməsi olan fiziki-kimyəvi tədqiqatlar laboratoriyasında həyata keçirilirdi. 4 yanvar 1973-cü il tarixdən isə institutun strukturunda yeni laboratoriya - Sənədlərin Məhkəmə Texniki Ekspertizası elmi-tədqiqat laboratoriyası yaradılmış və sənədlərin texniki tədqiqatı ilə bağlı ekspertizalar bu laboratoriyada aparılmağa başlamışdır [8, s.77-78; 9, s.10]. XX əsrin 80-ci illərinin sonlarında Azərb.ETMEK və KPİ-də sənədlərin məhkəmə-texniki ekspertizası şöbəsində sənədlərin rekvizitlərinin (çap formasının şəkli, maşında yazılmış mətnlər, kassa, teleqraf və başqa çap edən aparatların şəkilləri; poliqrafiya məhsulları; elektrofotoqrafiya surətləri; komposter işarələri; yanlış sənədlər; foto şəkillər və s.) tədqiqi hayata keçirilirdi.

XX əsrin 90-cı illərində isə sənədlərin məhkəmə-texniki ekspertizası şöbəsinin əməkdaşları tərəfindən elm və texnikanın ən son nailiyyətlərindən istifadə etməklə məhkəmə-texniki ekspertizası çərçivəsində sənədin hazırlanması üsulunun müəyyən edilməsi, sənədin ilkin vəziyyətinin bərpa edilməsi, hazırlanma vaxtının təyini, hazırlanmasında istifadə edilən alətlərin, vasitələrin, ləvazimatların və materialların, həmçinin sənədin icraçısının eyniləşdirilməsi ilə bağlı tədqiqatlar aparılmağa və ekspertizaların icraatı həyata keçirilməyə başlanmışdır. Bu illərdə ümumən sənədlərin məhkəmə-texniki ekspertizasının, xüsusi halda isə onun bir sıra növlərinin təşkili və keçirilməsinin metodiki əsasları da işlənib hazırlanırdı. Məsələn, 1994-cü ildə Sənədlərin Məhkəmə-Texniki Ekspertizası şöbəsinin əməkdaşları tərəfindən «İlkin məzmunları dəyişdirilmiş sənədlərin tədqiqatına dair» ekspress-informasiya hazırlanaraq nəşr olunmuşdur. Məhkəmə-istintaq orqanlarına, habelə ekspertlərə metodiki kömək məqsədilə hazırlanmış ekspress-informasiyada məzmunları əlavə etməklə, üstdən düzəltməklə, mexaniki üsulla pozmaqla dəyişdirilmiş sənədlərin tədqiqi ilə bağlı bir sıra elmi-nəzəri, metodoloji və metodiki xarakterli məsələlər nəzərdən keçirilmişdir. Bu növ ekspertizaların aparılması zamanı istifadə olunan əsas metodlar, avadanlıqlar, qurğular və digər texniki vasitələr (onların sırasında xüsusi halda mikroskoplar, lazer qurğuları, elektron-optik qurğular və s.) göstərilmişdir. 1999-cu ildə isə bu şöbənin əməkdaşı R.H.Ataşova tərəfindən «İlkin məzmunları pozma, əlavə etmə və üstdən düzəltməklə dəyişdirilmiş sənədlərin kriminalistik tədqiqatının nəzəri və metodiki əsasları» mövzusunda dissertasiya işi müdafiə edilmişdir.

Son bir neçə ildə Məhkəmə Ekspertizası Mərkəzinin sənədlərin məhkəmə-texniki ekspertizaları şöbəsinin əməkdaşları tərəfindən bu ekspertiza növünün elmi-nəzəri, metodoloji və texniki əsaslarının təkmilləşdirilməsi, məhkəmə-istintaq orqanlarına metodiki köməyin göstərilməsi məqsədilə bir sıra vəsaitlər, metodiki tövsiyələr işlənib hazırlanmışdır. Onların sırasında F.M.Cavadov, Ə.S.Məlikov, N.T.Pənahov tərəfindən hazırlanmış «Sənədlərin saxtalaşdırılması üsullarının müəyyən edilməsi» (2011), N.T.Pənahov və Ə.S.Məlikov tərəfindən işlənib hazırlanmış «Sənədlərin məhkəmə-texniki ekspertizasının təyini və aparılmasına dair metodik vəsait» (2018) xüsusi olaraq qeyd edilmlidir. Sonuncu vəsaitdə sənəd və rekvizitlərin anlayışı və təsnifatı; sənədlərin texniki ekspertizasının anlayışı, predmeti, obyekti və həll etdiyi məsələlər; sənədlərin texniki ekspertizasının metodları; çap üsullarla hazırlanmış sənədlərin tədqiqi; təsdiqedici çap forması əkslərinin (möhür və ştampların) tədqiqi; imzaların icra olunma üsulunun müəyyən edilməsi; sənədlərin məzmununun bərpası; ilkin məzmunu dəyişdirilmiş sənədlərin tədqiqatı; sənədlərin hazırlanmasının nisbi vaxtının müəyyən edilməsi; sənəd materiallarının tədqiqi kimi elmi-nəzəri və təcrübi əhəmiyyət kəsb edən məsələlər kompleksi nəzərdən keçirilmişdir [18].

Hazırda sənədlərin məhkəmə-texniki ekspertizasının ənənəvi kriminalistik ekspertizaların ən dinamik inkişaf edən ekspertiza növlərindən biri olduğunu qeyd etsək, bəlkə də yanılmarıq. R.H.Ataşovanın düzgün qeyd etdiyi kimi, «Müasir kriminalistika elmi hazırda sənədlərin məhkəmə texniki ekspertizasının elə metod və üsullarına malikdir ki, bunların sayəsində pozulmuş, qaralanmış, ləkələnmiş, kağız, parça, dəri, şüşə və s. materialları üzərində icra olunmuş mətnlərin bərpası, oxunması, yuyulmuş sənədlərin məzmunlarının müəyyən olunması, makina, mətbəə, işarə çap edən qurğuların və onların mətnlərinin eyniləşdirilməsi müvəffəqiyyətlə həyata keçirilir» [9, s.8].

Son illərin məhkəmə-istintaq təcrübəsi göstərir ki, cinayətkar fəaliyyətin müasir təzahürlərindən biri də maliyyə-iqtisadi və hesabat sənədlərinin saxtalaşdırılması yolu ilə hüquqi və fiziki şəxslərin fəaliyyətinə kriminal müdaxilə hallarının artmasıdır. Kompüter texnologiyalarının tətbiqi əsasında kərgüzarlığın aparılması bu növ texnologiyalardan istifadə etməklə həyata keçirilən iqtisadi cinayətkarlığın artımına gətirmiş, bu da kompüter çap qurğularının kriminalistik diaqnostikası və eyniləşdirilməsi ilə bağlı sənədlərin texniki-kriminalistik ekspertizası icraatına tələbatın artması-

na səbəb olmuşdur. Bu və digər amillər digər məhkəmə ekspertizalarında olduğu kimi, sənədlərin məhkəmə-texniki ekspertizası sahəsində də öz həllini gözləyən bir sıra yeni məsələlər kompleksinin yaranmasını şərtləndirmişdir.

Müasir şəraitlərdə sənədlərin texniki-kriminalistik tədqiqatının elmi-nəzəri və praktiki əhəmiyyət kəsb etməklə öz həllini gözləyən aktual problemlər sırasında aşağıdakılar xüsusi olaraq qeyd edilə bilərlər:

- informasiya-kompüter texnologiyalarından istifadə etməklə hazırlanmış sənədlərin, onların rekvizitlərinin (o cümlədən möhür və ştampların) kompleks kriminalistik tədqiqatının elmi-nəzəri və metodiki əsaslarının müasir reallıqlara uyğun olaraq təkmilləşdirilməsi;
- sənədlərin texniki-kriminalistik tədqiqatında zəifgörünən təsvirlərin rəqəmsal emalı, bu növ təsvirlərin informativliyinin yüksəldilməsini təmin edən texniki vasitələrin və metodların tətbiqi texnologiyalarının işlənilməsi;
- sənədlərin texniki-kriminalistik ekspertizasında qrafik kompüter proqramlarının tətbiqi üzrə yeni da effektiv metodikaların işlənib hazırlanması, mövcud metodikaların isə təkmilləşdirilməsi imkanlarının qiymtləndirilməsi;
- şəxsiyyəti təsdiq edən biometrik rekizitli sənədlərin texniki-kriminalistik tədqiqatının elmi-metodiki əsaslarının işlənib hazırlanması;
- sənədlərin rekvizitlərin icra tarixinin və ardıcıllığının müəyyən edilməsi üzrə texniki-kriminalistik tədqiqatın elmi-metodiki və texniki-texnoloji təminatının yaradılması və s.

Müasir yazı materiallarından istifadə etməklə hazırlanmış sənədlərin rekvizitlərinin kriminalistik tədqiqatının elmi-nəzəri əsaslarının, metodiki və təşkilati təminatının təkmilləşdirilməsi də sənədlərin məhkəmə-texniki ekspertizası sahəsində həlli vacib olan məsələlər kompleksinə aid edilə bilər.

Beləliklə, tarixi və elmi analiz göstərir ki, məhkəmə ekspertizasının ənənəvi kriminalistik ekspertizalarının əsas növlərindən biri olan sənədlərin məhkəmə-texniki ekspertizası kifayət qədər uzunmüddətli və mürəkkəb inkişaf yolu keçmiş, məhkəmə ekspertizasının bu növünün tədqiqat obyektləri və istiqamətləri müasir reallıqlar, məhkəmə-istintaq təcrübəsinin tələbatları nəzərə alınmaqla daima genişləndirilmiş və inkişaf etdirilmişdir. Müasir şəraitlərdə, qloballaşma və elmi-texniki tərəqqi dövründə isə sənədlərin məhkəmə texniki ekspertizasının qarşısında ekspertiza icraatının elmi əsaslılığını və mötəbərliyini yüksəldən müasir metod və üsulların işlənib hazırlanması, bu növ ekspertiza icraatının müasir tələblərə cavab verən elmi-metodiki, texniki, texnoloji və informasiya təminatının yaradılması kimi vəzifələr durur.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Крылов И.Ф. В мире криминалистики. Л., 1980.
2. Шведова Н.Н. Криминалистическое исследование документов: ретроспективный анализ и современное состояние//Вестник Саратовской государственной юридической академии. 2015, №1(102).
3. Россинская Е.Р., Зинин А.М. История становления и развития института судебной экспертизы в России//Вестник Университета имени О.Е.Кутафина (МГЮА). 2015. №12.
4. http://www.unn.ru/pages/disser/133.pdf.
5. Исаева Л.М. Специальные знания в уголовном судопроизводстве. М.: Юрист, 2002.
6. Баринова О.А. Криминалистические исследования реквизитов документов, нанесенных современными материалами письма: теоретические и прикладные аспекты. Диссерт.к.ю.н. Волгоград, 2015.
7. Белкин Р.С. История отечественной криминалистики. М., 1999.
8. Sarıcalinskaya K.Q., Cavadov F.M., Mahmudov A.M., Əliyev B.Ə. Məhkəmə ekspertizası. Bakı, 2003.
9. Ataşova R.H. İlkin məzmunları pozma, əlavə etmə və üstdən düzəltməklə dəyişdirilmiş sənəd-

lərin kriminalistik tədqiqatının nəzəri və metodiki əsasları. Hüquq elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 1999.

10. Гросс Г. Руководство для судебных следователей как система криминалистики. Новое изд.перепеч.с изд. 1908г. М., 2002.
11. Белкин Р.С. Крминалистическая экспертиза документов, выполненная полиграфическим способом//Всесоюзная конференция криминалистов. М., 1949.
12. Яблоков Н.П. Криминалистическое исследование материалов документов. М., 1961.
13. Основные задачи технико-криминалистической экспертизы документов. Организация экспертных исследований: учеб.пособие./Под ред.В.А.Снеткова. М., 1987.
14. Семенова В.А. Исследование материалов документов. Методическое пособие. М., 1970.
15. Палий В.М. Криминалистическое исследование документов, изготовленных на знакопечатающих устройствах. Киев, 1989.
16. Гортинский А.В. Теоретические и методические основы криминалистической диагностики и идентификации компьютерных печатающих устройств матричного типа. Автореф.дисс…к.ю.н. Саратов, 2000.
17. Шашкин С.Б. Теоретические и методические основы криминалистической экспертизы документов, выполненных с использованием средств полиграфической и оргтехники. Дис.докт.юрид.наук. Саратов, 2003.
18. http://expert.gov.az/upload/pdf/senedlerin-mehkeme-ekspertizasi-vesaiti.pdf

**Aysel Aslanova**

**The emergence, current state and prospects for the development of forensic technical examination of document**

The emergence of forensic technical examination of documents, the current situation, and development prospects were considered in the article, then the role and importance of A.Bertilyon, E.Burinski, A.Osborn, G.Gross, R.Reyss, N.Terziyev, A.A.Eysman, R.S.Belkin, N.P.Yablokov, V.K.Lisichenko and other criminologists in establishing the scientific-theoretical and methodlogical bases of forensic examination of documents were shown. A brief summary of monographic research conducted in the late twentieth and early twenty-first centuries in the field of forensic examination of documents in general, also the development of scientific-theoretical, organizational-technical and methodological bases of its various types, the written and defended dissertations.

The main stages of formation and development of organizational-legal and scientific-methodological foundations of forensic technical examination of documents in Azerbaijan were noted, and in recent years, a brief description of the methodological aids prepared for the purpose of improving the scientific-theoretical, methodological and technical bases of forensic technical examination of documents and providing methodological assistance to judicial-investigative bodies was shown in the Forensic Examination Center of the Ministry of Justice of the Azerbaijan Republic.

The article also identifies and systematizes the urgent problems of technical and forensic research of documents in modern conditions, which have scientific-theoretical and practical importance and awaiting their solution.

**Айсель Асланова**

**Возникновение, современное состояние и перспективы развития судебно-технической экспертизы документов**

В статье рассмотрены возникновение, современное состояние и перспективы развития судебно-технической экспертизы документов, показана роль и важность А. Бертильона, Э. Буринского, А. Осборна, Г. Гросса, Р. Рейсса, Н. Терзиева, А. А. Эйсмана, Р. С. Белкина, Н. П. Яблокова, В. К. Лисиченко и других криминалистов в формировании научно-теоретических и методических основ судебно-технической экспертизы документов. Было дано краткое изложение монографических исследований, написанных и защищенных диссертационных работ в области разработки научно-теоретических, организационно-технических и методических основ судебно-технической экспертизы документов в целом, а также отдельных ее видов в конце XX века, в начале XXI века.

Были отмечены основные этапы формирования и развития организационно-правовых и научно-методических основ судебно-технической экспертизы документов в Азербайджане, было дано краткое описание методических пособий, разработанных в целях совершенствования научно-теоретических, методологических и технических основ производства судебно-технической экспертизы документов в последние годы в Центре Судебной Экспертизы Министерства Юстиции Азербайджанской Республики, оказания методической помощи судебно-следственным органам.

В статье также выявлены и систематизированы актуальные проблемы, ожидающие решения, имеющие научно-теоретическое и практическое значение для технико-криминалистического исследования документов в современных условиях.